Aqrar Xidmətlər Agentliyi

# Minalayıcı Sitrus Güvəsi

# (Phyllocnistis Citrella Stainton)



088-588
axa.gov.az

# Zərərverici haqqında

Kəpənəyin bədəninin uzunluğu 2,1 mm, qanadları açılmış vəziyyətdə isə 4,8 mm-dir. Başı gümüşü ağ rəngdə, gözləri qara və qabarıqdır. Qabaq qanadları gümüşü-ağ rəngdə, iti uclu yarpağa bənzəyir. Qanadlarının içəri küncündə iki qara xətt, uclarına yaxın hissədə isə iki qara ləkə var. Arxa qanadları nazik, iynəvari formadadır. Qarıncıq gümüşü ag rəngdədir. Dişi fərdlər erkəklərdən böyük olur. Cütləşmədən altı gün sonra kəpənəklər cavan zoğların və təzə yarpaqların üzərində yumurta qoyurlar. Bir dişi fərd 200-ə qədər yumurta qoyur. Yumurtası parlaq ağ rəngdə, oval formada, 0,27 mm uzunluqdadır.

# Mübarizə tədbirləri

-lağımlayıcı sitrus güvəsi yayılmış rayonlardan əkin materialının daşınmasına zərərsizləşdirilmə aparıldıqdan sonra icazə verilməli, vaxtından əvvəl tökülmüş yarpaqlar və quru budaqlar kəsilib yandırılmalıdır

-güvə yeni zoğ və yarpaqlar əmələ gəldikdə sürətlə qidalanıb inkişaf etdiyinə görə, artıq zoğ və yarpaqlar qoparılmalıdır;

-intensiv çoxalma və zərərvermәsinin qarşısını almaq üçün, bitkilərin tez-tez suvarılmasına və gübrələnməsinə yol verilməməlidir;

-lağımlayıcı sitrus güvəsi əleyhinə inseqar, Bİ 58 novıy, dimilin, karate zeon, konfidor, aktara və s. insektisidlər səmərəlidirlər. Tırtılları məhv etmək məqsədilə sistem təsirə malik preparatlardan istifadə etmək daha məqsədəuyğundur. Açıq şəraitdə hər nəslə qarşı 2 dərmanlama tövsiyə edilir. İnkişafın intensivliyini və nəsillərin üst-üstə düşmələrini nəzərə alaraq, istixana şəraitində 10-12 gün intervalla dərmanlamalar aparılmalıdır. Dərmanlamalar kəpənəklərin kütləvi uçuşu dövründə aparılmalıdır;



Şəkil 1. Yetkin fərd.



Şəkil 2. Yumurtası.



Şəkil 3. Tırtılı.



Şəkil 4. Pup mərhələsi.